# Tərifdən, təltifdən, mədhdən uca...

Adını eşitmişdim, özü ilə tanışlığım mümkün olmasa da, onun haqqında çox öyrənmək, ailəsi ilə aid olduğu vətənin başladığı məkanla, onu tanıyan insanlarla görüşmək istədim. Kəndin girəcəyindən soraqlaşa-soraqlaşa getdiyimdə balaca bir məktəbli mənə bələdçi olacağını bildirdi: Mən bütün şəhidlərin evinə sizi apara bilərəm dedi... Bu balaca məktəblidəki vətənpərvərlik hissi qəlbimi "dağa döndərdi".

Mikayıl haqqda hər kəsdən xoş sözlər eşitdim, qürur hisslərini duydum, adını məhəbbət və hörmətlə çəkildiyi fakt olaraq gördüm. Mikayıl Mıxlıqovaq kəndinin igid oğullarından biri, vətənin tarixini yazan bir övlad idi.



**Onu tanıyırsınızmı?**

Mikayıl Miğfər oğlu Mikayıllı 1993-cü ildə sentyabrın 24-də Mıxlıqovaq kəndində sadə, zəhmətkeş bir ailədə doğulmuşdur. Kənd məktəbində orta təhsilini başa vurmuşdur. 2011-ci ildə, elə orta məktəbi bitirdiyi il hərbi xidmətə çağırılmış, "N" saylı hərbi hissədə xidmət etmişdir. 2013-cü ildə hərbi hissədən ehtiyata buraxılmış və 2013-cü ilin iyul ayının 27-də SQ Təlim və Tədris mərkəzinin MAHHXHQ hazırlıq kursuna qəbul olmuşdur. 11.10.2013-cü ildən 05.02.2015-ci ilədək Əməliyyat imkanları konsepsiyası taborunda kəşfiyyatçı-istehkamçı, 05.02.2015-ci ildən 02.09.2015-ci ilədək tuşlayıcı operator kimi çağırılmışdır. 20.06.2017-ci il tarixinədək xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının kəşfiyyatçı atıcısı, 24.06.2017-18.12.2020-ci ilədək isə xüsusi təyinatlı dəstənin manqa komandiri vəzifələrində xidmət etmişdir. Xidmətdə dövründə kiçik gizir, gizir rütbələri ilə təltif olunmuşdur.

2016-cı il Aprel döyüşlərində iştirak edərək qəhrəmanlıqla döyüşmüş, ayağından yaralanmışdır. Müalicə olunaraq yenidən xidmətinə davam etmişdir.

2020-ci il 27 sentyabrda başlanan Vətən Müharibəsində ön sıralarda döyüşmüş, bir çox uğurlu əməliyyatlar həyata keçirmişdir.

**Bir evin kişisi**

Mikayıl atasını 16 yaşında olarkən, əsl ata qayğısına, nəsihətinə ehtiyacı olarkən itirmişdi. Heç bir yerdə işləməyən, evdar xanım olan anası İradə xanım, məktəbli və kiçik qardaşı Samir və bacısı Günelin qayğı yükü Mikayılın çiyinlərinə endi. Ancaq anası İradə xanımla birgə olaraq çətinliklə də olsa, ailə öz yaşamına davam etmişdi, Mikayılsa yaşından tez "böyüdü", yetkinləşdi. Ağlı və düşüncəsi ilə də, əllərinin qabarı ilə də.



İradə xanım demiş, evin "böyüyü", kişisi oldu elə 16 yaşından.

Elə vətənpərvərlik sevgisi də ailədən qaynaqlandı onda. Axı ailə özü bir toplumdur. Elə ona görə də, Mikayılın hərb sənətinə marağı danılmaz bir fakt kimi labüd idi. Çünki hərbçilik sənəti əsl kişi sənətidir.

***Tarix əlifbası daşdan başlanır,***
***Əl dəydi yumşalır, göyərir indi.***

Tarix yazılmışdı... Tarix həmişə var. Ancaq bəzən tarixə səhv izlər kölgə salar. Və bu kölgəni silmək hünər istər... Axı tarixi dəyişdirmə k heç də asan sayılmaz. Tarix ağılla, düzgün düşüncə tərzi ilə, qanla, itkiylə dəyişə bilir. Qəhrəmanlıq dastanları tarix dəyişdikcə yaranmırmı?!

Mikayıl hərb sənətinə tarixi dəyişmək istəyi ilə gəlmişdi. Yeni tarix yazmaq, gələcək nəsillərin dərsliklərindəki acı xronologiyanı dəyişmək, ağrıdıcı faktları zəfərin tarixi köklərinin yaranması kimi qeyd edilməsi üçün seçmişdi. Seçdiyi yolun əsl yoldaşı, vətəninin əsl vətəndaşı oldu. Mikayıl vətəninin bütövlüyü, torpaqlarının işğaldan təmizlənməsi, xalqının öz isti ocağına qayıtması və orfoqrafiyasındakı qaçqın və köçkün, didərgin sözlərinin bir fakt olaraq köhnə tarixdə "paslanması" üçün həmişə öndə oldu, döyüş meydanında, kəşfiyyatda, söz aləmində. İgid oğul Mikayıl dəfələrlə neytral zonada olarkən, öz vəzifə borcunu yerinə yetirərkən ermənilərin çay evində çay haqqını milli pulumuzla ödər, mənfur erməniləri çaxnaşmaya salardı.

Tarix yazan oğul öz vətən sevgisi və insan adıyla yeni tarixin "əlifbasını" xidmət edərkən yağı tapdağında olan daşdan başladı. Axı igid əli dəyən kimi daş yumşalar, Vətən deyib "göyərərdi"...

Onun kimi oğullarsa qartal kimi vətən göylərində sərhəd bilmədən uçar, şığıyardılar. çünki onlar bilirdi ki,

***Daş qartal olmaq dağlara xoşdur,***
***Qartalın daşlığı kiçildir dağı!***

Mikayıl isə başı qarlı dağların əhatəsində olan qədim Qəbələdə böyümüşdü. Tarixi kökü olan bir igid idi Mikayıl!

**Günlər də canlıdır, ölsə dirilməz...**

Elə günləri öldürməmək üçün səhərindən günə hünərlə başlamaq lazımdır. Elə bu istəklə yaşayan Miksayıl hərbi xidmətdə olduğu hər gününə zəfər inamı, qələbə istəyi, qisas hissi ilə başlardı. Bu ona aid yaşadığı evdə açılan sərgi-onun geyim, şəkil, təltif, sertifikat və s.lərindən daha aydın görünür. Evdəki hər əşya bir tarixi sənəddir və insanla sanki dil açıb danışır. Bilirsiniz nə danışır?- Mikayıl balamızın qəhrəmanlıq dolu həyat salnaməsini! Yenidən yaşamaq mümkün olmadığı kimi, yaşandıqları da silmək mümkün deyil! İnsan üçün ən çətin şey hər gün insan qalmaqdır Mikayıl da bu çətinliyə əbədi bir bahar ömrü seçdi...

əbədilik məhfumunu təsdiqləyən
əbədilik zirvəsində şəhid yaşar...

evindəki xatirə otağında ona aid köynəyində onlarca güllə izlərini gördüm. Bu onun son geyimi idi. Yanındakı dostlarını qoruyarkən ona atılan düşmən qəlpələrinin açdığı dəliklərdən onun yaralarının sayını bilmək olardı... Kim bilir, bəlkə əvvəl vurulub, dostlarını son anda da qorumaq istəyib...

idman yarışlarında həmişə fərqlənərək ad alan, mükafatlandırılan Mikayıl, 2020-ci ilin oktyabr ayının 1-də doğma kəndi Mıxlıqovaqda dəfn olunmuşdur.

Ölümündən sonra "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Kəlbəcərin azad olunmasına görə", "Şücaətə görə" medalları ilə təltif olunmuşdur.

Ən böyük təltifi xalqın, doğma qəbələlilərinin onun adına belə hörmət və sevgisi "Vətən şəhidi" adıdır. Şəhidlik uca zirvədir. O zirvədən ömürləri dərə kimi, təpə kimi, yamac kimi görmək olur. O zirvədən talelər yarpaq kimi, budaq kimi, ağac kimi görmək olur.

Şair Məmməd Araz demiş:

***Əbədilik məhfumunu təsdiqləyən,***
***Əbədilik zirvəsində şəhid yaşar!***

Şəhid ömrü ucalığın əlçatmaz zirvəsindən bu həyata nur səpələr.

***Şəhid adı qoymaz ona,***
***Təltif çata, mədh çata, tərif çata!***

Doğru! Çünki insanlığın ən uca zirvəsidir şəhid adı!

**BİBİXANIM.**

# Bir ömrə bədəl 19 il...

İnsan bu həyata bir dəfə gəlir və gedir. Həyatı da çox təəssüf ki, seçə bilmir. Kimisi çox gözəl bir mühitə, yerə göz açır, kimisi də əziyyətin və çətinliyin hökm sürdüyü… Bax, belədir həyat. Birinə rahat, birinə çətin…

İnsanın göz açdığı mühit onu o yöndə dəyişir. Kimisini insan kimi insan edir, kimisini isə sadəcə "insan".

Hələ 19 yaşı var idi onun. Gələcək və gözəl günləri qarşıda idi. Arzuları var idi… Bu dünyada hər kəsdən çox sevdiyi ailəsi üçün gözəl arzuları var idi. O çətinlik və əziyyətin nə demək olduğunu hələ çox kiçik yaşlarından dərk etmişdi. Gözəl geyimlərlə, gözəl şəraitli bir evdə böyüməsə də, xoşbəxt idi. Çünki onun gözəl ailəsi-anası, atası və bacısı var idi. Bir övlad üçün bundan dəyərli nə ola bilərdi ki?...

Elməddin nə qədər ailəsini çox sevsə də, vətəni onu gözləyirdi. Axı bizə kiçik yaşlarından "Vətən bizim anamızdır"-deyə öyrədilib. Elməddin vətəni anası bildi, anasına olan sevgisini vətənindən də əsirgəmədi. 2019-cu il iyulun 5-də hərbi xidmətə yollandı. Kim bilə bilərdi ki, 2020-ci ilin fevral ayında o, öz evini son dəfə məzuniyyətə gələrkən görəcək. Lakin gedərkən o həsrət dolu baxışları sanki bir də dönməyəcəyinə işarə idi. O geri döndü. Son dəfə, üçrəngli bayrağa bükülmüş tabutda… O anasına söz vermişdi: "Məni hər kəs tanıyacaq", deyə. Bəli, 2020-ci il 10 oktyabrda onu hər kəs tanıdı. Həm də bir ölməz qəhrəman kimi…

***Əziz ana, can ana,***
***Gözəl mehriban ana!***
***Böyütdükcə bizi sən***
***Dən düşür saçlarına.***

Mustafayev Elməddin Məhəmməd oğlu 1 may 2001-ci ildə Qəbələ rayonunda dünyaya göz açmışdır. 2007-ci ildə Qəbələ rayon 4 saylı tam orta məktəbin 1-ci sinifinə daxil olmuşdur.

Dərs oxumağı sevməzdi. Valideynləri, müəllimləri nə qədər təkid etsə də, oxumazdı. Lakin tərbiyəsinə də söz ola bilməzdi. Məktəb illərindən isə tək əzbərlədiyi bir



Mustafayev Elməddin Məhəmməd oğlu
Qəbələ şəhəri
2001-2020

şeir var idi: "Ana" şeiri… Hər məktəb tədbirində onu oxuyar, hər bayramda anasını o şeirlə təbrik edərdi.

**"Sanki o qəlpə, mənim ürəyimə dəydi"…**

Deyirlər zaman unutdurur. Nə qədər böyük acı yaşasanda zaman keçər, dərd unudular. Əslində isə zaman unutdurmur, sadəcə yaraları "qaysaqlandırır". Yaralı olduğunu bilirsən, sadəcə ilk günki kimi acı yaşaya bilmirsən. Zaman qaçılmazdır, geri dönməzdir. Ömür yolunu geriyə qayıdıb bir daha yaşamaq qeyri-mümkündür. Allahda sanki onun taleyini, qismətini öncədən yazmışdı və bunu Elməddin özü də dərk edərək bu həyatı doya-doya, ən əsası şərəflə yaşamağa çalışırdı. Nə qədər çətin həyat yaşasa da hər zaman gülürdü. Eynilə digər şəhidlər kimi… Dar günündə vətənini qorudu, namərdlik edib qaçmadı. Necə ki, anası üçün canını verməyə hazır idi, vətəni üçündə canını qurban verdi. Gülə-oynaya yollandı hər döyüşə.

Ailəsi ilə şəhid olmamışdan bir gün əvvəl yəni, oktyabrın 9-u danışır. Anasına hər şeyin Allahın qisməti olduğunu deyir. Yenə zəng edəcəyini söyləsə də o zəng, son zəng olur. Əslində ana da hiss etmişdi o zəngin son zəng olduğunu. Lakin ağlına gətirmək, düşünmək istəmirdi.

Elməddin Füzulinin azad edilməsi istiqamətində gedən döyüşlərdə düşmənin atdığı minomyotun qəlpəsinə tuş gələrək şəhid olur. Heç nədən xəbərsiz olan Könül ana sanki o anı hiss etdiyini, o qəlpənin sanki onun ürəyinə dəydiyini deyir. "O an ürəyimdə bir hiss yarandı. Elə bir hiss idi ki, onu heç bir sözlə ifadə etmək mümkün deyil. O qəlpə sanki, mənim ürəyimə dəydi"-deyə, vurğulayır.

Şəhidimizin atası Məhəmməd Mustafayev deyir ki, oktyabrın 10-u telefonuna zəng gəlir: "Oğlunuz yaralanıb və onun yanına gəlməlisiniz".

Ata heç nədən xəbərsiz yola çıxır. Ana isə yaralı da olsa, oğluna qovuşacağının həsrətilə heç nədən xəbərsiz gözləyir. Lakin ana oğlunun bayrağa bükülmüş tabutunun gəldiyini görür...

Övladı kiçik ikən onu "boyuna qurban olum" deyərək sevib, oxşayan, qayğı ilə böyüdən şəhid anası bu acıya necə dözsün axı?...

Könül ana, oğlunun cansız bədənini görmədiyi üçün hələ də bir ümid onun gələcəyini gözləyir. Axı, Elməddinin hərbi xidmətini başa vurub evə dönməsinə 3 aydan da az bir vaxt qalmışdı. Ananın oğlu üçün ürəyində arzuları var idi. Səbirsizliklə bu arzuları həyata keçirmək üçün oğlunun hərbi xidmətdən qayıtmasını gözləyirdi. Lakin Allahın qismətinə baxın ki, ürəyi arzularla dolub-daşan, həyat eşqi ilə alışıb-yanan 19 yaşlı gənc ən uca zirvəyə Şəhidlik zirvəsinə ucalır. Anasına verdiyi sözü tutur və bu dünyada bir ad qoyur-ölməz və qəhrəman Elməddin!

Şəhidlik adi ölüm deyil, Vətən, torpaq, böyük amallar uğrunda candan keçmək, özünü şüurlu şəkildə qurban vermək deməkdir. Şəhidlik verilmiş ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır. Onlar da bu yolu seçdilər. İşıqlı gələcəklərini gələcək nəsillərin xoşbəxtliyi uğrunda qurban verdilər.

Görəsən bu gün Elməddini kasıb olduğu üçün öz mağazasından "Sənin bu köynəyi alacaq pulunmu var?" deyərək çıxaran şəxs peşmandırmı ona elə davrandığı üçün? Bu mövzu sual altındadır. Dünyada o şəxslərdən çoxdur. Hansı ki, bu gün Elməddin kimi oğullarımız o şəxslər rahat yaşasın deyə canlarını qurban vedi. Bəlkə bundan sonra o cür şəxslər heç olmasa şəhidlərin bizə əmanət qoyub getdiyi ailələrinə bir ömür borclu olduqlarını başa düşərlər. Bunu tək onlar yox, hər birimiz başa düşməliyik.

**Fidan ömrə verilən qiymət**

19 illik ömrə sığışdırdığı qəhrəmanlıq və igidliyi ilə yaddaşlara həkk olan Elməddin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, ölümündən sonra "Vətən uğrunda" medalı, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Qəhrəmanlar heç vaxt unudulmur. Xalqımız ana Vətənin azadlığı, doğma diyarın istiqlalı, müqəddəs torpağın şərəfi, qeyrəti, namusu yolunda canını qurban verənləri həmişə qəlbində yaşadır, onları şərəf və qeyrət simvolu kimi xatırlayır, gənc nəslə nümunə kimi təqdim edir.

***Ədalət deyənin əzilməz dizi,***
***Sizdəndir əllərin söhbəti, sözü.***
***Doğma Azərbaycan unutmaz sizi,***
***Siz torpaq uğrunda ölənlərsiniz...***

Şəhidlərə nə qədər titullar, mükafatlar verilsə də, ən böyük mükafatı onlar özləri qazandılar. Çünki şəhidlik Allah qatında ən böyük, müqəddəs zirvə və tituldur. Allah şəhidlərimizə rəhmət eləsin!

**Ilahə RƏHİMOVA,**
**"Qəbələ"**